NEW ERA INTERNATIONAL JOURNAL OF INTERDISCIPLINARY SOCIAL RESEARCHES | ISSN 2757-5608

Article Arrival Date
11.01.2022
Doi Number: 10.46291/newera.155

Article Type
Research Article

Article Published Date
25.03.2022

# MUSTAFA KAMAL ATATÜRKÜN İSLAHATLARININ XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ TÜRKİYƏ İNCƏSƏNƏTİNİN VƏ MƏDƏNİYYƏTİNİN FORMALAŞMASINA VƏ İNKİŞAFINA TƏSİRİ

# THE INFLUENCE OF THE MUSTAFA KEMAL ATATURK REFORMS ON THE FORMATION AND DEVELOPMENT OF ART AND CULTURE IN TURKEY IN THE EARLY TWENTIETH CENTURY

**Anar İSKƏNDƏROV**

Azərbaycan Dövlət İqtisad Universiteti Dizayn kafedrası , iskenderov72@mail.ru

ORCID ID: 0000-0001-5198-3279

**XÜLASƏ**

Türkiyə Cumhuriyyətinin qurucusu və Türk dünyasının dahisi sayılan şanlı Atatürkün adı müasir zamanda bütün türkdilli xalqlar üçün olduqca əziz və doğmadır. Öz misilsiz dühası, hərb və siyasi savaş meydanlarında nümayiş etdirdiyi əvəzsiz istedadları ilə, vətənə və bütün Türk dünyasına olan coşqun sevgisi ilə Atatürk yalnız Türkiyə dövlətinin və xalqının məhv edilməsinin, parçalanmasının qarşısını almayıb, o, cəmiyyətdə maarifçilik, savadlanma, elmi mədəni yeniliklərə yiyələnmə kimi mühüm islahatları tətbiq edərək Türk bayrağının yenidən yüksəklərə ucalmasına və səmalarda dalğalanmasına zəmin yaratdı. Türkiyə xalqı qədim köklərə və olduqca zəngin mədəni irsə malik olaraq bəşər incəsənətinə olduqca dəyərli mənəvi töhfələr bəxş etmişdir. Cumhuriyyətin yaranması ilə Türkiyədə incəsənətin heykəltəraşlıq, qrafika, reklam, plakat kimi sahələri inkişaf edərək formalaşmağa başlamışdır. Türkiyənin tarixində ilk monumental heykəltəraşlıq abidələrinin yaradılması və bir çox tanınmş Türkiyə heykəltəraşlarının meydana gəlməsi məhz Cumhuriyyətin qurulması ilə bağlıdır. Maarifçiliyin, savadlanmanın, elmin Türkiyə cəmiyyətinin bütün sahələrində tətbiqinin nəticəsi olaraq Cumhuriyyət dövründə bir çox tanınmış Türkiyəli qadın sənətkarlar, incəsənət xadimləri, idmançılar və dövlət qulluqçuları yetişir. Dövlətin rəssamları heç bir ideologiya çərçivəsində sıxmayaraq, onlara yaradıcılıq azadlığı bəxş etməsi Cumhuriyyət dörü Türkiyə incəsənətində bir birindən fərqli, müxtəlif üslubların, maraqlı yaradıcılıq axtarışlarının yaranmasına səbəb olur. Dövlətin Yurt Gezilerinin, inqilab sərgilərinin təşkil etməsi, kəndlərə, kənd təsərrüfatına və kənd zəhmətkeşlərinə külli miqdarda vəsaitin ayırması cəmiyyətdə xalq məişətinə və mədəniyyətinə, xalq dekorativ tətbiqi sənətinə olan marağın artmasına səbəb oldu. Cumhuriyyət dövrünün bir çox rəssamları öz yaradıcılıqlarında milli ənənəvi elementlərə müraciət edərək Türkiyə xalqının mədəniyyətini və ənənəvi incəsənətini müasir dünya incəsənətində tanıtmağa uğurla müvəffəq olmuşlar.

Bu məqalə dahi Atatürkün təbliğ və tətbiq etdiyi misilsiz islahatlarının XX əsr Türkiyə incəsənətində əks olunmasının tədqiqinə yönəldilmişdir. Tədqiqatın əsas məzmununu siyasətin incəsənətə təsiri nəticəsində incəsənətdə meydana gələn yeni cərəyanların və yaradıcılıq yollarının inkişafının mürəkkəb proseslərinin təhlili təşkil edir.

**Açar Sözlər**: Atatürk, Cumhuriyyət, Türkiyə incəsənəti, yaradıcılıq

**ABSTRACT**

The name of the famous Ataturk, the founder of the Turkish Republic and the genius of the entire Turkic world, is very dear and native to all Turkic-speaking peoples in our time. With his unsurpassed genius, outstanding talents displayed on the battlefields and political war, passionate love for the Motherland and the entire Turkish world, Atatürk not only prevented the destruction and disintegration of the Turkish state and people, but also, by implementing such important reforms in society as education, the acquisition of scientific and cultural innovations, created the basis for the Turkish flag to rise to heaven with renewed vigor and fly in eternity.

The Turkish people, with their ancient roots and extremely rich cultural heritage, have made a very valuable spiritual contribution to the fine arts of the world. With the formation of the Republic in Turkey, such areas of art as sculpture, graphics, advertising and poster began to develop. The creation of the first monuments of monumental sculpture in the history of Turkey and the appearance of many famous Turkish sculptors is connected with the establishment of the Republic. As a result of the application of education, science, and literacy in all spheres of Turkish society, many famous women-artists, artists, athletes, and civil servants-appeared during the Republic. The fact that the state does not bind artists within the framework of any ideology, gives them freedom of creativity, leads to the appearance of different styles and interesting creative searches in the Turkish art of the Republic period.

This article is devoted to the study of the reflection in the Turkish art of the twentieth century of the unique reforms that the great Ataturk preached and applied.

**Keywords**: Ataturk, Republic, art of Turkey, creative

## 1. GİRİŞ

Hər bir xalqın incəsənət əsərləri onu yaradan cəmiyyətin formalaşmasının və inkişafının mürəkkəb proseslərini və hər dövrdə meydana gələn yeni aktual problemlərin özünə məxsus xüsusiyyətlərini özündə əks etdirməyə qadirdir. Hər bir xalq öz mənəvi dəyərlərini, incəsənət ənənələrini qoruyub saxlayaraq və inkişaf etdirərək öz mədəni irsini gələcək nəsillərə çatdırmaqla bir xalq kimi əriyib yox olmamasını, öz tarixi köklərinin itməməsini təmin edir.

Müasir mədəniyyətin və incəsənətin insan cəmiyyətinin həyat fəaliyyətinin bütün sahələrinə yeni nəfəs bəxş etdiyi zaman öz yaradıcılıqlarında milli adət ənənələrə, sadə insanların obrazlarına, xalqın məişətinə və həyatına müraciət etmələri Türkiyə rəssamlarının özlərini intellektual və fəlsəfi səviyyədə daha dərindən dərk etmələrinə və müasir dövrdə daha yeni yaradıcı yüksəkliklərə ucalmağa can atdıqlarına aydın dəlalət edir. Bütün bunlar Türkiyə rəssamlarının təsviri incəsənətin boyakarlıq, qrafika, heykəltəraşlıq, dekorativ tətbiqi sənət kimi ənənəvi sahələrində yaratdıqları əsərləri və onların bəşər mədəniyyətinə verdikləri mənəvi töhvələri daha da dəyərli edir.

Aparılmış çox saylı tədqiqatlar Türkiyə incəsənətində monumental heykəltəraşlıq, plakat, reklam, qrafik illüstrasiyalar kimi yeni sahələrin yaradılaraq inkişaf etdirilməsinin, müasir üslubların yaranmasının və gərgin yaradıcılıq axtarışlarının aparılması ilə dolğun olan yeni bir parlaq səhifənin meydana gəlməsinin əsas səbəblərinin dahi Atatürkün maarifçilk islahatları ilə bağlı olduğunu sübut edir.



Lakin təəssüflə qeyd etmək lazımdır ki, bir çox Qərb tədqiqatçıları bu dahi insanın və onun mənəvi silahdaşlarının sanki yaşadıqları cəmiyyətin əsrlərlə qurub yaratdığı mədəniyyət və incəsənət ənənələrini kökündən yox edərək, cəmiyyətin şüurunda yalnız qəti və ciddi dəyişikliklər yarada biləcək yeniliklərə daha çox üstünlük verdiklərində israr edirlər.

Əlbəttə ki, bütün bu mülahizələr olduqca yanlış və əsassızdır. Şanlı Atatürkün dühası, onun təbliğ və tətbiq etdiyi islahatlar Türkiyə dövlətinin və Türk xalqının Qərb mədəniyyətinin soyuq təfəkkürü tərəfindən kəskin texnoloji dəyişikliklərə uğradılmış gələcək mürəkkəb dünyada yaşaması və mübarizə aparması qüdrətinə malik olmaları üçün olduqca önəmli rol oynamışdır. (B.Y. Mikhailovich, 2005). Böyük Atatürk öz dühası ilə baş verəcək dəyişikliklərin dramatik dönüşünün qarşısını alaraq, dəyişiklikləri daha da sürətləndirib, onları gərgin mübarizələr nəticəsində düzgün istiqamətə yönəltməyə nail ola bilmişdi. Bu kəskin dəyişikliklərin Türk xalqının, cəmiyyətininin həyatında doğulması qaçılmaz və labüd idi.

Müasir dövr Türk xalqının qarşısına çözülməsi vacib olan yeni aktual suallar və məsələlər qoyurdu. Azadlığın, hüquq bərabərliyinin, xarici qəsbkarlarla aparılan amansız savaşlarda qələbənin qazanılması Türk xalqına ağır itkilər və gərgin mübarizələr hesabına başa gəlmişdir. Bu çətin imtahan Türk xalqının mənəvi dəyərlərinin hər bir sahəsinə təsir edən güclü bir iz qoymuş olduqca böyük bir sınaq idi. Lakin Türk xalqının bütün bu sınaqlardan əzmlə keçərək parlaq qələbələr əldə edə bilməsi sanki əfsanəvi simurq quşu kimi alovların içərisində yenidən canlanaraq ucalan Türk dövlətinin, mədəniyyətinin və incəsənətinin hər bir sahəsində bir çox yeni özünəməxsus cəhətlərin meydana gəlməsinə də güclü təkan verdi.

Təsadüfi deyildir ki, Atatürkün islahatları və Cumhuriyyətin qurulması dövrünə qədəm qoymuş Türk rəssamlarının qarşısında duran əsas vəzifə Qərb incəsənətinə məxsus qabaqcıl üslubları və texnikaları peşəkarcasına öyrənib, onları yalnız təqlid etməkdən ibarət deyildi. Onların çiyinlərinə qoyulmuş daha çətin və mühüm vəzifələrdən biri öz yaradıcılıq yollarını daha dərindən qavrayıb dərk etmək, öyrənilən yeni təsvir üslublarının axtarışlarının müasir Türk cəmiyyətinin qarşısında duran yeni dövrün aktual suallarını canlandırmağa qadir olacaq milli incəsənət məktəbinin yaradılmasıdan və inkişaf etdirilməsindən ibarət idi.

## 2. ARAŞDIRMA. CUMHURİYYƏT DÖVRÜNDƏ TÜRKİYƏ İNCƏSƏNƏTİNİN FƏLSƏFİ MƏZMUNU.

Qeyd etmək lazımdır ki, artıq XIX əsrin əvvəllərindən başlayaraq Türkiyə rəssamlarının yaratdıqları miniatür əsərlərində həcm, işıq–kölgə, perspektiv kimi təsvir elementlərindən geniş istifadə edilərək realizmə can atıldığını asanlıqla müşahidə edə bilərik. Bütün bu axtarışlar Türk boyakarlığının daxilində Qərb incəsənətinin üstün cəhətlərinin təqlidi ilə məhz Türk incəsənətinə məxsus olan milli formaların, orijinal təsvir üslublarının və özünəməxsus kompozisiya motivlərinin tətbiqi arasında baş verən gərgin daxili yaradıcılıq mübarizəsini açıqlayır. Əlbəttə ki, bu ciddi üslub və texnika axtarışları XIX əsrdə Türkiyə rəssamlarının mənzərə janrında çəkdikləri əsərlərin miniatür üslubuna xas olan səthilikdən azad olmasına, perspektiv elementlərindən düzgün istifadə edilməsi isə olduqca canlı, realistik üsluba malik əsərlərin meydana gəlməsinə kömək etmişdir (D. Erbil, 1965). Bir çox Türkiyə rəssamları Gözəl Sənətlər Məktəbini bitirdikdən sonra incəsənətdə yaranan yeni üslub və cərəyanları, realistik məktəbin təsvir texnikalarını və üsullarını daha dərindən tədqiq etmək üçün o dövrün ən qabaqcıl incəsənət mərkəzlərinə Parisə və Münhenə göndərilirdilər. Məhz bu dövrlərdən başlayaraq Türkiyə rəssamlarının yaradıcılıqlarında impressionizm üslubunda yaradılan və milli Türk koloritini, Türk şəhərlərinin romantik əhval ruhiyyəsini, möhtəşəm məscidlərinin, camilərinin füsunkar zərifliyini, qəhvəxanalarının, küçələrinin, kəndlərinin şairanə sükutunu əks etdirən olduqca gözəl boyakarlıq əsərləri meydana gəlir.



Lakin Türk xalqının xarici qəsbkarlara–Antanta dövlətlərinin nəhəng hərbi birliklərinə qarşı yönəltdiyi azadlıq mübarizəsinin alovlu ruhunu daha dolğun əks etdirmək və tamaşacılara çatdırmaq üçün yeni təsvir dilinə, daha güclü və dolğun yaradıcılıq üslubuna ehtiyac duyulurdu. Türk rəssamları vətənə olan sevgilərini həm müharibə meydanlarında aparılan azadlıq döyüşlərində olan öz şəxsi iştirakları ilə təsdiqləyir, həm də yaratdıqları əsərlərində Türk xalqının çiyinlərinə düşmüş olduqca ağır, iztirablı sınaqları və eyni zamanda əsrlərlə sönmədən parlayaraq tarixin səhifələrində əbədi olaraq həkk ediləcək şanlı əməlləri bəzək düzəksiz, realistik səpgilərlə tamaşaçıya və bəşəriyyətə çatdırmağa can atırdılar.

Dünya incəsənətində misilsiz boyakarlıq əsərləri ilə ad qazanmış Türk rəssamları İbrahim Çallı, Namık İsmail çəkdikləri döyüş səhnələrində Türk xalqının sadə nümayəndələrinin, vətən uğrunda öz həyatlarını qurban verməyə hazır olan döyüşçülərin, kəndlilərin, qadınların həlak olaraq əsl qəhrəmanlara çevrilmələrinin dramatik anlarını, zamanı sanki kətan üzərində ani olaraq donduraraq, onların obrazlarını güclü, geniş rəng yaxarları və fırçalarının qəti, qorxmaz hərəkətləri ilə yapırdılar. Namık İsmailin "Kurtuluş savaşında topçular" adlı əsərinin əsas qəhrəmanı olan yaralı Türk döyüşçüsünün fiquru süni, təmtəraqlı qəhrəmanlıq pafosundan uzaq olaraq təbii, ağır və geniş rəng yaxarları ilə həll edilmiş, daxilən güclü və əzmli obrazda təsvir edilmişdir. Yaralı döyüşçü əyilməz iradəsinin gücü ilə gərgin mübarizədən və aldığı ağır yaralardan zəifləmiş bədəninin bütün son qüvvələrini toplayaraq, sanki qırılmaz ruhunun bütün daxili gücünü düşmənə tuşladığı axırıncı döyüş mərmisinə ötürməyə, son nəfəsinin bahasına da olsa düşmənə ölümcül zərbə vurmağa can atır. Bu dramatik kompozisiyada yarı sınmış döyüş topunun, dağıdılmış istehkamın və artıq şəhid olmuş digər silahdaşların realistik təsvirləri baş verəcək hadisənin labüdlüyündən, əsərin əsas

qəhrəmanının həlak olacağından tamaşaçıya aydın xəbər verir. Bütün kompozisiya səhnəsini əhatə edən qatı barıt dumanı əsərə məxsus dramatizm hisslərini daha da artıraraq, eyni zamanda tamaşaçının fikrinin ikinci dərəcəli detallara, arxa, uzaq planlara yayınmayaraq yalnız əsas qəhrəmanın obrazında cəmlənməsinə kömək edir. Məhz bu obraz əsərin əsas ideya məzmununu özündə bütün dolğunluğu ilə əks etdirir. Tamaşaçı bu cəsur yaralı Türk döyüşçüsünün bir qədər əldən düşmüş, yalnız bütün son gücünün toplanılması sayəsində ayaq üstündə durmuş mübariz fiqurunu seyr etdikcə anlayır ki, bu obraz artıq ölümsüzdür. Təsvir edilmiş qəhrəman artıq ölüm və həyat arasında olan qorxunc sərhədi öz iradəsi və qətiyyəti ilə adlayaraq yalnız qələbə və vətəninin əbədiyyatı haqqında düşünür. Kompozisiyanın bütün detallarına hakim olmağa can atan ölüm simvolikası bu obrazın daxili gücünə, gərgin dinamikasına hakim ola bilmir.

Maraqlıdır ki, döyüş səhnəsini özündə əks etdirən "Yunan topçularına hücum" adlı çox fiqurlu və olduqca canlı, dinamik kompozisiya quruluşuna malik olan iri əsəri böyük istedadlı Türk rəssamı Sami Yetik yalnız emalatxanasında işləmişdir. Lakin əsəri seyr edən tamaşaçı sanki rəssamın qeyri adi dühası ilə bir nəfəsə çəkilmiş bu sənət incisinin özündə əks etdirdiyi həyat dolğunluğuna, ekspressiya hisslərinin güclü axınına valeh olmaya və realizmi ilə seçilən bu əsərin işıqlı emalatxananın sükutunda yaradıldığına şübhə etməyə bilməz.

Aşıb daşan güclü sel axını kimi düşmən cəbhəsini, odlu top maneələrini yararaq, həyəcanla qaçan, əlləri tüfəngli düşmən əsgərlərini yalnız havada ildırım kimi parıldayan iti qılıncları ilə məhv edən Türk süvarilərinin obrazları, şaxəyə qalxaraq kişnəyən, çapan atların, qorxu və həyəcan içində vurnuxaraq təlaşla qaçan, yıxılan düşmən əsgərlərinin təsvirləri güclü realistik üslubda işlənilmişdir. Təsvir edilmiş insan və at fiqurlarının maraqlı rakurslarda verilməsi, fiqurların olduqca canlı, təbii hərəkətlərdə çəkilməsi və müxtəlif emosiyaların zənginliyi bu əsəri yaradan Türk rəssamının hüdudsuz təxəyyülünün və ustad peşəkarlığının danılmaz sübutudur.



Bir çox tanınmış Türk rəssamları: İbrahim Çallı, Namık İsmail, Adil Sami Yetik, Hikmet, Feyhaman, Cemal, Şevket, Ali Sami, Tahsin Beyler öz yaradıcılıqlarında düşmənlə çarpışan ideal Türk döyüşçüsünün monumental obrazını kətan üzərində yaratmağa, milli duyğuları qəhrəmanlıq səhnələri ilə alovlandırmağa can atırdılar. Bu rəssamların hazırladıqları sənət əsərləri 1918-ci ildə Vyana şəhərində sərgiləndirilmiş və bu əsərləri özündə əks etdirən rəsm kataloqu da dərc etdirilmişdir.

Böyük Türk rəssamı Namık İsmailin "Vətən əmr edərsə" əsəri özünün işlənilmə texnikasına, təsvirlərin, insan və at fiqurlarının, xırda detalların olduqca realistik səpkidə həll edilməsinə və kompozisiyanın orijinal quruluşuna görə diqqəti çox cəlb edir. Eyni zamanda bu kompozisiya öz süjetinin məzmununun güclü ruhu ilə də tamaşaçını heyrətləndirərək onu özünə qarşı biganə qoya bilməz. Qarşısı alınmaz bir sürətlə hücuma keçən süvari alayı dəhşətli uçurumun, dərinliyi ölçülə bilinməyən geniş yarğanın üzərindən irəli atılaraq düşmənə zərbə vurmaq üçün nəhəng sıçrayış etdiyi zaman təsvir edilmişdir. Qorxudan gözləri bərəlmiş, həyəcanla kişnəyən atların üzərində sükutla oturmuş süvari alayı artıq ölümcül sıçrayışı edərkən təsvir edilir. Süvarilərin, atların əsas kütləsi kompozisiyanın sağ tərəfində yerləşdirilmişdir və tarazlıq qanunlarına görə bu kompozisiyada dağılma hissini yaratmalı idi. Lakin süvarilərin əllərində tutaraq qabağa tuşladıqları iti mizraqlar sanki vizual bir illüziya yaradaraq coşqun bir hərəkətdə təsvir edilmiş fiqurların hərəkət dinamikasını daha da artırır. Ən qabaq cərgədə, kompozisiyanın sol tərəfində yerləşdirilən, nəhəng sıçrayışdan sonra sanki havada ani olaraq donmuş atlı süvari fiquru kompozisiya mərkəzini təşkil edərək əsərə tarazlıq hissini bəxş edir. Müxtəlif baxış nöqtələrində–olduqca mürəkkəb rakurslarda, müxtəlif gərgin və dinamik hərəkətlərdə təsvir edilmiş atların və insan fiqurlarının işlənilməsinin peşəkarlığı, sanki kompozisiyanı xəfif bir dumana bürüyərək müharibə səhnələrinə məxsus olan dramatik hissləri daha da artıran, bir qədər solğun rəng palitrasının özünəməxsus

psixoloji təsiri, bütün bunlar tamaşaçının qəlbində olduqca dərin izlər qoymağa qadirdir. Sanki qarşısı alınmaz dəli bir fırtına kimi nəhəng, dibsiz uçurumu adlamağa çalışan bu dəmir iradəli polad süvari dəstəsini seyr etdikcə, onların sakit, ciddi üz cizgilərini, qətiyyətli hərəkətlərini izlədikcə bu uçurumun fəth ediləcəyinin və düşmənin qızğın döyüş atlarının nalları altında əziləcəyinin labüdlüyünün danılmaz bir həqiqət olduğunu hiss edirsən.

## 3. TÜRKİYƏ CUMHURİYYƏTİNİN İDEOLOJİ PRİNSİPLƏRİNİN SƏNƏT ƏSƏRLƏRİNDƏ ƏKS ETDİRİLİLMƏSİ.

Əlbəttə ki, cəmiyyətdə Türk əskərinin mübariz obrazına yaranmış böyük marağı yalnız Türk xalqının düçar olduğu amansız müharibələrin nəticəsi kimi qəbul etmək yanlış mülahizə olardı. Vətəni, ailəsi, dövləti uğrunda çarpışmağa, onları hər an silahlanaraq qorumağa hazır olan ideal bir vətəndaş obrazının köklərini daha çox dahi Atatürkün apardığı Respublika islahatlarında aramaq lazımdır. Yada salaq ki, qədim Roma Respublikasının ilk ən saf dövrlərində hər bir vətəndaş, istər patritsiy və yaxud pelebey olsun, Respublikanın qanunları və rifahı uğrunda hər an legioner olmağa hazır olan bir cəmiyyətin üzvləri idilər. Buna misal olaraq Arif Bedii Kaptan tərəfindən çəkilmiş "Cumhuriyetin Genclige Tevdii" adlı əsəri yada salaq. Rəssam Respublika başçısının –Atatürkün ətrafında təsvir etdiyi əzmli və olduqca sağlam bədənli Türk gənclərini Roma Respublikasını quran əfsanəvi Romul və Remlərə bənzətməyə çalışmışdır. Əsrdə təsvir edilən bir çox elementlər, məsələn: gənclərin libasları, gəncin əlində tutduğu məşəl, əzəmətli dağı bürümüş əzəmətli ağ buludlar və dahi Atatürkün üfüqlərə doğru dikilmiş mənalı və ciddi nəzərləri sanki şanlı, qüdrətli Respublikanın yenidən yarandığını və səmalara ucaldığını qeyd edir.

Lakin öz əzəmətli əlləri və dahi zehni ilə Türkiyə Cümhuriyyətini quran Xalqın Atası heç zaman müharibələrin, qanlı savaşların və başqa millətlərə təcavüzün tərəfdarı olmamışdır. Cəsarət və mərhəmət, cəmiyyətdə bərabər hüquqların yaradılması, yenilənmək, modernləşmək və eyni zamanda öz xalqına, onun adət ənənələrinə, mənəvi dəyərlərinə dərin ehtiram və qayğı ilə yanaşmaq, bütün bunlar Atatürk üçün əvəz edilməz, güclü bir lider olaraq sadəcə sözlər və gözəl şüarlar deyil onun böyük bir səbr ilə tətbiq etdiyi, həyata keçirdiyi islahatların əsas mərkəzi hissəsi idi.



Təsadüfi deyildir ki, bu dövrün boyakarlıq əsərlərində yaralı düşmən əsgərlərə yardım edən Türk döyüşçülərinin təsvirlərinə də olduqca tez tez rast gəlinir. Böyük ustad Ali Cemalın "Bir az su" adlı əsərində atından enərək yaralı düşmən əsgərə yardım edən Türk döyüşçüsü təsvir edilmişdir. Türk döyüşçüsünün özündən zəif, yaralı düşməninə mərhəmət və hörmətlə yanaşan obrazı, onun nəcib hərəkətli aristokratik fiquru, aldığı yaradan ayaq üstündə dura bilməyərək yerə çökmüş düşmən əsgərin sustalmış bədəninin təsviri, onun təəccüb və minnətdarlıq hisslərini ifadə edən yorğun üzünün cizgiləri, bütün bunlar bu qeyri adi kompozisiyanı quran rəssamın insan psixologiyasının və emosiyalarının ən incə təzahürlərini hiss edərək kətan üzərində peşəkarcasına həkk edə bilməsinin, böyük istedadın sübutudur. Əsərin rəng palitrası, fiqurların, detalların olduqca canlı, dəqiq və eyni zamanda qorxmadan böyük peşəkarlıqla və geniş rəng yaxarları ilə həll edilməsi bu az fiqurlu, lakonik, lakin olduqca güclü və dolğun kompozisiyanı dahi Velaskesin şah əsərlərinə oxşadır.

Fəlsəfi məzmun bu dövrdə yaşayıb yaradan Türkiyə rəssamlarının əsərlərinin üslub axtarışlarına təsir edərək hər bir rəssamın yalnız ona məxsus üslub xəttinin meydana gəlməsinə və digərlərindən seçilməsinə kömək edirdi. İslahatlar dövrü Türk rəssamlarına əvvəlki çərçivələrdən çıxaraq yaradıcılıq azadlığına qədəm qoymalarına və ilham mənbələrinin seçimində, təsviri cərəyanların axtarışlarında yeni perspektivləri əldə etməkdə kömək etdi. Azadlıq yoluna qədəm qoymuş Türk xalqının mənəvi irsinin ayrılmaz bir hissəsi olaraq onun ruhunu əks etdirən milli ənənəvi dəyərləri

Atatürk dövrünün rəssamları daha realistik texnikalarda və üslublarda ifadə etməyə can atırdılar. Cümhuriyyəti yeni qurmuş və müharibə meydanında çarpışmağa məcbur olmuş Türk dövlətinin qarşısında durmuş bütün iqtisadi çətinliklərə baxmayaraq ölkənin ən çətin zamanlarında belə mədəniyyət və incəsənət sahələrinə aid olan bütün məsuliyyətləri öz üzərinə götürməsi Türkiyədə təsviri sənətin tənəzzülə uğramayıb əksinə onun mədəniyyət və incəsənətinin inkişafında yeni bir mərhələnin başlanmasına əlverişli şərait yaratdı.

Müasir dövrə addımlayan Türk cəmiyyətinin şüurunda və mədəniyyətində qarşısı alınmaz mürəkkəb və dinamik bir yenilənmə prosesi başlanırdı. Buna ilk növbədə bəzi dəyərlərin puç olduğu və yeganə siyasi və mədəni bir həqiqət kimi sürətlə inkişaf edən zamanın doğurduğu yeniliklərlə ayaqlaşmağı bacarmağa çağırışın qəbul edilməsi təkan verirdi. Türk rəssamları böyük sosial mövzuların və həyatın mühüm tendensiyalarının fəlsəfi məzmunlarını estetik mənimsəyərək sürətlə dəyişilən dünya mədəniyyətinə və incəsənətinə, getdikcə kəskinləşən qlobal bəşəri konfliktlərə qarşı öz nəzər nöqtələrini yaradıb tamaşaçılara aydın çatdırmağa müəssər ola bilmişdilər.

## 4. TÜRKİYƏ İNCƏSƏNƏTİNDƏ MONUMENTAL HEYKƏLTƏRAŞLIQ, REKLAM VƏ PLAKAT KİMİ YENİ SAHƏLƏRİN YARADILMASI VƏ İNKİŞAFI.

Cumhuriyyət dövründə Türkiyə incəsənətində boyakarlıq və bədii qrafika sahələrinin mövzu dairəsi olduqca genişlənir. İlk dəfə olaraq Türkiyə incəsənətində heykəltəraşlıq sahəsi yaradılır və Türkiyədə bir sıra çox istedadlı heykəltəraşlar nəsli yetişdirilir. Ən əsası isə monumental heykəltəraşlıq dövlət tərəfindən inkişaf etdirilərək olduqca gözəl və güclü monumental heykəltəraşlıq abidələrinin kompleksləri, tarixi şəxsiyyətləri əks etdirən böyük həcmli heykəllər, büstlər və çox fiqurlu barelyef kompozisiyalar meydana gəlir.



Qeyd etmək lazımdır ki, Pietro Kanonika və Haynrix Krippel kimi tanınmış heykəltəraşlar Atatürkə həsr edilmiş bir sıra mürəkkəb kompozisiyalı böyük həcmli monumental heykəltəraşlıq abidələrini yaratsalar da, Türk dünyasının dahisi Atatürk onun heykəl və portret büstlərinin hazırlanmasının sifarişlərini əcnəbi heykəltəraşlara verilməsi təkliflərini düzgün hesab etməyərək bu işin yerinə yetirlməsi üçün Türk heykəltəraşlarının yetişdirilməsini və bu sənətə dövlət tərəfindən böyük qayğı göstərilərək onun inkişaf etdirilməsini daha uyğun hesab etmişdir. Türk sənətçilərinə olan bu qayğı və hörmət əlbəttə ki, öz gözəl bəhrələrini tezliklə verməli və Türkiyə Cumhuriyyətinin incəsənətini bir birindən maraqlı sənət inciləri ilə zənginləşdirməli idi.

Məhz Cumhuriyyətin yaranması və güclənməsinin nəticəsi olaraq Türkiyənin tarixi ilə bağlı olan bir sıra körkəmli dövlət xadimlərinin, tanınmış şəxslərin portretləri yaradılır və tarixi hadisələri özündə dolğun əks etdirə bilən monumental boyakarlıq, heykəltəraşlıq və qrafik üslubda işlənilmiş kompozisiyalar meydana gələrək inkişaf etdirilir.

Dahi Atatürkün islahatları nəticəsində cəmiyyətin bütün təbəqələrində və nəhəng ölkənin həyat fəaliyyətinin hər bir sahəsində milliyyətindən və cinsiyyətindən asılı olmayaraq vətəndaşlıqda, səs vermədə, vəzifələrə seçilmədə, əmək və təhsildə bərabərhüquqluluğun vacibliyi anlamları tətbiq edilir və inkişaf etdirilirdi. Maarifçiliyin bəhrələri Türkiyənin qadın vətəndaşları üçün də geniş yollar və onların həyatında yeni perspektivlər açdı. Əlbəttə ki, Türkiyə dövlətində və Türk cəmiyyətində qadına heç zaman alçaq nəzərlərlə baxılmayıb və hər bir Türk üçün qadın ilk növbədə ana, həyat yoldaşı və ailənin, ocağın qoruyucusu kimi olan müqəddəs bir varlıq simvolunda çıxış edir. Lakin Şanlı Atatürk və Cumhuriyyət dövrünün islahatları qadınlara seçim və vətəndaşlıq hüquqlarını, kasıb və yaxud varlı təbəqəyə mənsub olmasına baxmayaraq müasir təhsil almaq

imkanlarını, peşə seçimində, elmdə, yaradıcılıqda müvəffəqiyyətlər əldə etmək üçün dövlətin qayğı və güclü dəstəyini bəxş etdi. Təsadüfi deyildir ki, məhz bu dövrlərdə Türkiyə dövlətində elmdə və texnikada olduğu kimi yaradıcılıq sahələrində də, dünya mədəniyyətində və incəsənətində adları parlayaraq tanınmış bir çox olduqca istedadlı Türkiyəli heykəltəraş və rəssam, şair və aktyor olan qadınlar yetişir.

Görkəmli Türk rəssamı Feyhaman Duranın tələbəsi olmuş Sabiha Bengütaş sonradan böyük ustad İhsan Özsoyun başçılığı altında Sanayi-i Nefise Məktəbinnin ilk qadın heykəltəraş tələbəsi kimi təhsilini müvəffəqiyyətlə bitirərək İtaliyada Roma Gözəl Sənətlər Akademiyasında təhsilini davam etdirir və burada böyük uğurlar və şöhrət qazanır. İstanbulda Taksim Meydanında Atatürkün şərəfinə ucaldılan çox fiqurlu və mürəkkəb kompozisiyalı nəhəng monumental abidənin –Taksim Cumhuriyyət Anıtının yaradılmasının üzərində tanınmış heykəltəraş Pietro Kanonika ilə birlikdə Sabiha Bengütaş və Ali Hadi (Bara) bey kimi istetadlı Türk heykəltəraşları da çalışmışlar. Bu monumental abidənin kompozisiyası iki çoxfiqurlu hissədən–iki üzdən ibarətdir. Bir hissədə Mustafa Kamal Atatürk Qurtuluş savaşından olan bir səhnədə, döyüş topu ətrafında düzülmüş əsgərlərin, sadə insanların önündə duraraq, bütün diqqətini cəmləyib nəzərlərini üfüqlərə dikib, sanki hücum əmrini verməyə hazırlaşan bir vəziyyətdə təsvir edilir. Kompozisiyanın ikinci hissəsində Atatürk mülki libasda ən yaxın silahdaşlarının, bayraqlar tutmuş zabit və əsgərlərin, sadə insanların önündə durmuş vəziyyətdə təsvir edilir. Kompozisiyadakı insan fiqurları sanki geniş açılmış nəhəng darvazalardan çıxaraq günəş işığına qərq olurlar. İnsanların bir qədər heyrətlənmiş və yüksək üfüqlərə dikilmiş sevincli gözləri, təbəssümlü üzləri elə bil ki, onların üfüqlərdə nə isə qeyri adi gözəlliyə malik olan əzəmətli və parlaq, möhtəşəm bir təzahürü seyr etdikləri anda həkk edilmişdir. Ön cərgədə duraraq ilhamlanmış, nurlu üzündə mülayim təbəssüm həkk edilmiş Millət Atası sanki seyr etdiyi möhtəşəm əzəmətdən vəcdə gələrək sağ əlini nəcib bir hərəkətlə bir qədər irəli uzadaraq tamaşaçıları, insanları yüksək üfüqlərdə parlayan, yeni qurulmuş gənc Türkiyə Cumhuriyyətini seyr etməyə dəvət edir. Bu monumental heykəltəraşlıq abidəsi bir incəsənət əsəri kimi həm özünün maraqlı, çox fiqurlu, mürəkkəb kompozisiya quruluşu ilə, həm də malik olduğu qeyri adi daxili gücü ilə və heykəltəraşların əsərdəki qəhrəmanlıq və nəcib ideal ideyalarını vahid bir süjet məzmununda uğurla, olduqca harmonik və peşəkarcasına uzlaşdırmağı bacardıqlarına görə dünya incəsənətinin şah əsərlərindən biri sayıla bilər.



Sabiha Bengütaşın yaradıcılığında portret janrına böyük önəm verildiyini müşahidə etmək mümkündür. Türkiyənin bir çox tanınmış ədiblərinin, yazıçılarının, rəssamlarının, diplomatlarının portret büstlərinin yaradılmasında bu böyük istedadlı qadın heykəltəraşın xüsusi zəhməti və böyük rolu olmuşdur. Yaratdığı portret və büstlərində təsvir etdiyi modellərinin yalnız zahiri oxşarlığı ilə qənaətlənməyən böyük ustad insanların daxili aləmini, onların xarakterlərini açıqlamağa, tamaşaçının qarşısında önə çıxartmağa çalışırdı. Onun yaratdığı portretlər qalereyasını seyr edərkən gözlərimizin önündə həyatın acılarını dadmış sərt, gərgin və təzadlı xarakterlərə malik olan vəzifəli şəxslərin, dövlət qulluqçularının üz cizgilərindən başlayaraq, daxilən şairanə, romantik və idealist bir qəlbə malik olduqları böyük bir bacarıqla açıqlanmış yaradıcı insanların olduqca müxtəlif və mürəkkəb daxili dünyaları canlanır. Böyük ustadın əlləri altında gil və yaxud mərmər kimi cansız materiallar sanki canlanaraq müsbət və yaxud mənfi hisslərin toqquşduğu real və irreal dünyaların birləşməsini təşkil edir və eyni zamanda bu dünyaları öz əsərlərində əks etdirməyə can atan yaradıcı sənətkarın yalnız ona məxsus olan hissləri və fikirləri ilə dolğun zəngin daxili dünyası da bu sirli yaradıcı prosesdə əks olunur. Məhz bu zaman biz artıq cansız materialı–mərmər daşı və yaxud gili deyil, yalnız rəssamın bizim gözlərimizin önündə canlandırdığı yeni bir dünyanı seyr etməyə, anlamağa çalışırıq. Böyük ustadın dühası ilə adi cansız materiallar maddi predmet aləmi çərçivəsindən çıxaraq mənəvi ideyaların və estetik hisslərin daşıyıcılarına çevrilirlər.

Görkəmli heykəltəraş Sabiha Bengütaşın yaratdığı monumental heykəltəraşlıq nümunələrindən söhbət açdıqda ilk sırada öz kompozisiyalarının lakonikliyi və obrazların bədii bütövlüyünə uyğun olaraq sadə lakin əzəmətli formalarda həll edilmiş Atatürkün Çankaya Köşkündə ucaldılmış Anıt heykəli abidəsini və İsmet İnönü şərəfinə Mudanyanın Mütareke Meydanında ucaldılmış Anıt abidə

heykəlini nümunə gətirmək olar. Şanlı Atatürkün əzəmətli çiyinləri üzərinə salınmış hərbi plaş ağır, geniş, səlis və simmetrik qatlar yaradaraq hərbi geyimdə təsvir edilmiş dahi komandanın fiquruna məxsus monumentallıq hisslərini daha da artırır. Nəcib formalı əllərini önündə şaquli vəziyyətdə yerləşdirilmiş hərbi qılıncının qəbzəsi üzərinə qoymuş, sakit və ciddi nəzərləri ilə hüdudsuz üfüqləri seyr edən Atatürkün əzəmətli fiquru sanki əbədiyyətdə donaraq, zamanın qatı dumanlı sükutu üzərində öz vüqarlı, sakit cizgiləri ilə hökm sürür.

Qeyd edək ki, məhz Mudanyada atəşkəsin bağlanması, yeni qurulan Türkiyə Cumhuriyyətinin İngiltərə və digər Qərb dövlətləri tərəfindən tanınması kimi olduqca mühüm bir siyasi zəfər baş verir. Böyük Atatürk öz məktublarında bu diplomatik qələbənin Türkiyə Cumhuriyyətinin gələcək tarixində böyük rol oynayacağını qeyd etmiş və bu siyasi vəzifəni uğurla yerinə yetirə bilmiş Batı cəbhəsi ordularının baş komandanı olan İsmet İnönünün ağır və şanlı zəhmətini olduqca yüksək qiymətləndirmişdir. 1938 ci ildə bu böyük zəfərin və onu qazana bilmiş cəsur Türk döyüşçüsü və istedadlı diplomat olan İsmet İnönünün şərəfinə ucaldılacaq Anıt abidəsinin müsabiqəsi elan edilir. Müsabiqədə qalib gəlmiş istedadlı heykəltəraş Sabiha Bengütaş İsmet İnönünün heykəlini də güclü və əzəmətli, monumental formalarda həll edir. Sol əlini hərbi qılıncının qəbzəsinə dayayaraq, sol ayağı bir qədər irəli qoyulmuş vəziyyətdə təsvir edilən fiqurun çiyinlərindən asılmış hərbi plaş onu arxadan əhatə edərək heykələ statik monumentallıq təəssüratı bəxş edir. Hərbi geyimdə və hərbi aksesuarlarla təsvir edilməsinə baxmayaraq İsmet İnönünün üzünün nəcib cizgiləri, sanki bir qədər içinə dalaraq ciddi fikirlərə qərq olmuş baxışları, qarşımızda duran bu insanın daha çox böyük ideyalarla yaşayaraq, mürəkkəb sualları çözməyə çalışan bir filosof təbiətinə malik olduğu haqqında təəssürat oyadır.

Cumhuriyyət dövründə Türkiyə incəsənətinin qrafika, plakat, afişa və illüstrasiya kimi sahələri inkişaf edərək cəmiyyətin mədəni həyatında geniş tətbiq olunur. Bu dövrün ən tanınmış qrafik ustalarından biri Türkiyə incəsənətində öz çoxşaxəli yaradıcılığı ilə dərin iz buraxmış ustad qadın Sabiha Rüştü Bozcalıdır. Təhsilini Münhin və Berlin şəhərlərində başladıqdan sonra İstanbuldakı Sanayi-i Nefise Məktəbində davam etdirərək, 1928-1929 illərdə Sabiha Rüştü Bozcalı böyük rəssam Namık İsmailin tələbəsi olur. 1930-1933 illərdə rəssam Parisdə məşhur neoimpresionizm üslubunda işləyən Paul Siqnak ilə birlikdə çalışaraq onun yaradıcılığına böyük maraq göstərir. 1939-cu ildə Türkiyə Cumhuriyyətinin Xalq Firqəsi və Xalqevləri qurumları tərəfindən təşkil edilən "Yurt Gezileri"nə dəvət edilərək ölkədə yaranmaqda olan yeni industriyanının, fabrik və zavodların inkişafı ilə bağlı olan bir çox rəsmlər, reklam və plakatlar yaratmışdır. Bunların arasında "Yapı Kredi Bank" və "İnhisarlar İdarəsi" üçün yaradılmış plakatları və reklam illüstrasiyalarını, "Milliyet", "Yeni Sabah", "Hergün", "Havadis", "Cumhuriyet" və "Tercüman" qəzetlərinə çəkilmiş illüstrasiyaları, 1950-1972 ci illərdə on doqquz kitaba etdiyi gözəl rəsm və illüstrasiyaları misal gətirərək bu yorulmaz ustad qadının nə qədər böyük yaradıcılıq potensialına malik olduğunu dərk etməmək mümkün deyildir. Qeyd etmək lazımdır ki, istedadlı rəssamın kətan üzərində yaratdığı realistik portretləri, qrafik rəsimləri ilə birlikdə rəssamın çoxlu sayda akvarel–suluboya texnikasında işlədiyi gözəl mənzərələrdən və illüstrasiyalardan ibarət yaradıcılıq irsi də bizim zamanımıza çataraq Türkiyə incəsənətinin ayrılmaz bir hissəsini təşkil edir.



## 5. BULGULAR. TÜRKİYƏ RƏSSAMLARININ YARADICILIQ AXTARIŞLARININ ÖZÜNƏMƏXSUS XÜSUSİYYƏTLƏRİ.

Türkiyə Respublikası qurulduqdan sonra 1923 cü ildə milli süjetləri və motivləri öz yaradıcılıqlarında əks etdirən kompozisiyalara meyl edən "Yeni rəssamlar birliyi" meydana gəlir. 1924 cü ildə İstanbulda Kurtuluş müharibəsinin iştirakçılarının portretlərindən, milli azadlıq müharibəsinin səhnələrini əks etdirən kompozisiyalardan və kəndlilərin həyatını, xalq məişətini canlandıran əsərlərdən ibarət sərgi keçirdilir. Bir çox istedadlı Türk rəssamlarının əsərlərində simvolizmə, impressionizmə, kubizmə və futurizmə olan meyl aydın oxunur. Bir çox Rus və Qərb tədqiqatçıları Cumhuriyyət dövründə çalışmış Türkiyə rəssamlarının yaradıcılıqlarında Sovet Sosialistik ölkələrinin incəsənətinə xas olan oxşarlıqları vurğulamağa çalışsalar da bu mülahizələrin

yanlış olduğu asanlıqla nəzərə çarpır. Sovet incəsənətinin dövlət tərəfindən olduqca ciddi nəzarət altına alınması və təmzinlənməsi, rəssamlara öz əsərlərində yalnız Sovet ideologiyasına uyğun olan mövzulara müraciət etmələrinə izn verilməsi, yeganə düzgün yaradıcılıq üslubu kimi yalnız realizmin qəbul edilməsi Sovet incəsənətini dar çərçivələrə qoyaraq, yaradıcılıq axtarışlarının mürəkkəb proseslərinin inkişafını ləngidirdi. Əməyə, idmana, kolxozçuların, fəhlələrin həyatına, xalqın məişətinə və s. həsr edilmiş Sovet rəssamlarının əsərlərinin əsas məzmununu Sovetlər dövlətinin ideologiyası ilə yaşayan sadə insanların necə xoşbəxt və razı həyat sürdüklərinin incəsənət vasitəsi ilə əks olunması təşkil edirdi. Bir çox rəssamlar öz yaradıcılıqlarında şərti dekorativ üsluba müraciət etsələr də təəssüf ki, mövzu oxşarlıqları bu əsərləri bir birinə olduqca oxşar edirdi. Sovet rəssamlarının realizm məktəbinə məxsus olan olduqca güclü ifadə vasitələrini, realistik təsvir priyomlarını, peşəkar rəsm və boya texnikalarını əla bilmələrinə baxmayaraq, onların fikir və ideya axtarışlarının qarşısında qoyulmuş dar sərhədlər yaradılan bir çox əsərləri daxilən cansız və teatr səhnələrinə oxşar edirdi.

Türkiyə Cumhuriyyətinin incəsənətə, rəssamlara, onların yaradıcılıq axtarışlarına tam sərbəstlik və azadlıq verməsi, dövlət tərəfindən yeganə təbliğ edilən bir ideologiyanın yalnız vətənə məhəbbət və maarifçilikdən ibarət olması Türkiyənin incəsənətində olduqca müxtəlif, bir birindən fərqli üslubların, təsvir dillərinin və texnikalarının, yaradıcılıq axtarışları ilə zəngin təzadlı və rəngarəng kompozisiya mövzularının yaranmasına və getdikcə daha da inkişaf etməsinə güclü təkan verdi. Cumhuriyyət dövrünün rəssamları öz xalqının məişətini, kəndliləri və yaxud fəhlələri, sadə insanları və s. təsvir edərkən öz əsərlərində təsvir etdikləri obrazların daha çox daxili aləmlərini açıqlamağa, bu obrazların onlarda doğurduqları hissləri və emosiyaları tamaşaçılara çatdırmağa can atırdılar.

Öz əsərlərində müxtəlif Qərb üslublarına və texnikalara müraciət etmələrinə baxmayaraq Türkiyə rəssamlarının yaradıcılıqlarında öz milli köklərindən ayrılmamağa can atmaları aydın nəzərə çarpır. Cumhuriyyət dövrünün dahi rəssamı Turqut Zaimin 1935-ci ildə Cemal Bingölə yazdığı məktubunda ona Qərb rəssamlarının Rembrandtın, Lotun, Matisin, Renuarın əsərlərini tədqiq etməsinə, lakin sadə təqliddən uzaq olaraq öz üslubunu daxili aləmini təyin etməyə, öz yaradıcılığını Şərqdən ayırmamağa dəvət edirdi. Təsadüfi deyildir ki, bu dövrlərdə çalışan bir çox tanınmış rəssamların əsərlərində müasir kubizm, futurizm, primitivizm, simvolizm kimi üslubların xalq sənətinin elementləri və ənənəvi Türk sənətinin estetik prinsipləri ilə sinkretik olaraq birlikdə çıxış etdiklərini aydın müşahidə edə bilərik.



Cumhuriyyətin 1923-cü illərdən başlayaraq kənd təsərrüfatını qaldırmaq, kəndlilərə, fermerlərə dəstək olmaq üçün Ziraat Bankı tərəfindən külli miqdarda kənd təsərrüfatı avadanlıqlarının, maşınların və çoxlu texnikanın kömrük xərclərinin ləğv edilərək kəndlərə, fermerlərə çatdırılmasını təşkil etməsi, aşar vergisinin yox edilməsi, kəndlilərin ehtiyaclarının dəf edilməsi üçün dövlət tərəfindən çoxlu sayda kreditlərin ayrılması, Xalqevlərinin, İnqilab sərgilərinin, Yurt Gezilerinin yaradılması cəmiyyətdə və incəsənətdə kənd məişətinə, folklora, xalq dekorativ tətbiqi sənətinə, onun elementlərinə qarşı xüsusi bir maraq oyada bildi(N.Q. Kireev, 2007.). Bu mövzularda Namık İsmail kimi bir çox istedadlı rəssamların klassik realizm üslubunda yaratdıqları əsərləri ilə yanaşı ənənəvi–geleneksel üslubda, bir qədər şərti dekorativ dildə yaradılan olduqca müxtəlif və maraqlı incəsənət əsərləri meydana gəlir. Nurullah Berkin, Turqut Zaimin, Sabri Berkelin, Nuri İyemin, Bedri Rahmi Eyüboğlunun, Abidin Elderoğlunun, Cemal Tollu və s. istedadlı Türk rəssamlarının yaradıcılıqlarına Qərb akademik üslubundan ayrılaraq öz ilham mənbələrini milli ənənəvi formalarda aramaqları, əsərlərinin kompozisiyalarında xalq məişətinə və mədəniyyətinə üz tutmaları xasdır.

Cemal Tollu, Bedri Rahmi Eyüboğlu kimi tanınmış ustad rəssamlar öz yaradıcılıqlarında Türk xalqının mifik-poetik dünya görüşünü, Anadolunun qədim Hittit simvolikasını açıqlayan təsvir kanonlarına böyük həvəslə müraciət edirlər. Metaforik kompozisiya quruluşuna, şərq rəng

palitrasının çalarlarına malik olan bu əsərlər sanki tamaşaçınının gözləri önündə ekspressiya və dinamika ilə dolğun olan sirli bir aləmi canlandırır.

## 7. MÜZAKİRƏ VƏ NƏTİCƏ.

Türkiyə rəssamlarının apardıqları bütün bu olduqca mürəkkəb yaradıcı axtarışların əsas məqsədi ilk növbədə Türk xalqının qədim və orta əsrlərə məxsus təsvir ənənələrinin, Türk xalqının zəngin mənəvi irsinin, etnik dəyərlərinin müasir sənət əsərlərində ümumdünya incəsənəti səviyyəsində nümayiş etdirərək işıqlandırılmasından ibarətdir. Bu əsərlərin meydana gəlməsi ilə Türk cəmiyyətində xalq sənətinə, keramikaya, xalçaçılığa, toxuculuq və parça sənətinə olan marağın artmasına, yox olmaq təhlükəsi gözlənilən bir çox etnik mədəniyyət elementlərinin dirçəlməsinə, onların simvolikalarının yenidən "doğulmasına" və müasir incəsənət əsərlərində yenidən həvəslə tətbiq edilməsinə geniş vüsət verdi. Qeyd etmək lazımdır ki, Atatürkün böyük bir səbr ilə qurduğu yeni cəmiyyətdə tətbiq etdiyi islahatların əsas məzmunu da məhz öz etnik köklərinə, xalqının mənəvi dəyərlərinə bağlı qalaraq yenilənmək, müasir dünyada öz individual cizgilərini saxlayaraq irəliləməkdən ibarət idi. Mustafa Kemal Atatürkün Türkiyənin yeni nəhəng və müasir sənaye ölkəsinə çevrilməsinə can atması ilə yanaşı onun incəsənətin bütün sahələrinə göstərdiyi əvəzsiz qayğıları da tarixi yazılarda həkk edildiyi kimi bizə çatmış misilsiz memarlıq abidələrində, Cumhuriyyət dövründə yaradılmış gözəl incəsənət əsərlərində də aydın əks olunur. Dahi Öndər incəsənətin insanların və cəmiyyətin mənəvi inkişafında oynadığı rolu əvəzsiz hesab edərək səyyar sərgilərin, inqilab sərgilərinin, yaradıcı insanların cəlb edildiyi "Yurd Gezilerinin" təşkil edilməsinə böyük önəm verirdi. Özünü Türkiyə xalqının, onun tarixinin ayrılmaz bir hissəsi hesab edən Mustafa Kamal Atatürk öz xalqının Cumhuriyyətdən öncəki incəsənət nümunələrini, sənət əsərlərini 1937-ci ildə açdırdığı Rəsm və Heykəl muzeyində toplanaraq qorunmasının və Türkiyənin mənəvi, mədəni irsinin yox olmayaraq gələcək nəsillərə çatdırılmasının qayğısına qalmışdır. Osmanlı dövründə 1882-ci ildə açılmış Sanayi-i Nefise-i Məktəbini təmir və inkişaf etdirərək 1928-ci illərdə Güzel Sanatlar Akademiyasına çevirən Atatürk burada təhsil alan bir çox istedadlı tələbələri öz peşəkarlıqlarını inkişaf etdirmək üçün Parisə, Almaniya və Avstriya ölkələrinə göndərərək onlara dəstək olmuşur. Türkiyə incəsənətinin demək olar ki, elə bir sahəsi yoxdur ki, Millətin Atası Atatürkün nəzərlərindən, qayğısından qıraqda qalsın. 1928-ci illərdə Atatürk Ankara, İzmir və İstanbul şəhərlərində musiqi məktəbləri və konservatoriyaları açdıraraq Türkiyə musiqiçilərinin xaricdə akademik musiqi təhsili almalarına və Türk musiqisinin daha da ucalmasına qulluq göstərmişdir. 1924-cü ildə Atatürk Ankarada "Riyaseti Cumhur Musiki Heyeti" adlı simfonik orkestrı və "Musiki Muallim Mektebi"ni qurdurdu. Bu musiqi ocağında həm Türk həm də Qərb musiqisi dərindən tədqiq edilərək tədris olunurdu. Mustafa Kamal Atatürkün Türkiyənin incəsənətinə, onun gələcək mədəniyyətinə göstərdiyi xidmətləri olduqca böyük və əhəmiyyətlidir. Bu dahinin qurduğu, yaratdığı əzəmətli əməllərinin çiçəklənmiş bəhrələrini biz bu gün Türkiyə Respublikasının elm və sənayedə, tibb və incəsənətdə müasir, dinamik, sürətlə dəyişərək irəliləyən dünyanın, zamanın ön sıralarında qürur və qətiyyətlə addımlamasında aydın müşahidə edə bilərik.



## ƏDƏBİYYAT:

Baturin, Yuri Mikhailovich (2005.). Dossier of the scout: experience of the reconstruction of fate . Moscow: Molodaya gvardiya : Novaya gazeta., (in Russ.).

Erbil, D. (1965). İlk Türk yağlı boya ressamları, Akademi, İstanbul Güzel Sanatlar Akademisi Tarafından Yayınlanmaktadır, Sayı: 3-4, İstanbul, s 20-26.

Kireev, N.Q.(2007.). History of Turkey of the XX century. Moscow: IV RAS:Kraft+. - 608 P. - ISBN 978-5-89282-292-3 s.212(in Russ.).

Köklügiller, Ahmet. (2000). Atatürk'ün İlkeleri ve Düşünceleri, Toplumsal Dönüşüm Yayınları, İstanbul.

Başkan, Seyfi (1990). Tanzimat'tan Cumhuriyet'e Türkiye'de Resim, Kültür Bakanlığı Yayınları: 1990 Yayımlar Dairesi Başvuru Eserleri Dizisi:150, Ankara.

Giray, Kıymet. (1997). "Müstakil Ressamlar ve Heykeltraşlar Birliği" Akbank Kültür ve sanat Kitapları: 64 İstanbul.

Katrancı, Başak. (2006). "Yurt Gezilerinin Kültür ve Sanat Ortamına Yansıması" (1938-1943) Electronic Journal of Oriental Studies (EJOS), IX NO:4 P.,1-169.